# BAKI DÖVLƏT UNİVERSİTETİNDƏ TƏHSİLİN KEYFİYYƏTİNİN DAXİLİ TƏMİN OLUNMASI SAHƏSİNDƏ SİYASƏT VƏ STANDARTLAR

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. “Bakı Dövlət Universitetində təhsilin keyfiyyətinin təmin olunması sahəsində siyasət və standartlar” Bakı Dövlət Universitetində (bundan sonra – “BDU”) keyfiyyətin təmin olunması və bu sahədə mədəniyyətin fasiləsiz inkişaf etdirilməsinə ümumi yanaşmaları, əsas prinsipləri və mexanizmi əks etdirir.

1.2. Keyfiyyətin təmin olunması sahəsində siyasət və standartlar BDU-da idarəetmənin əsas tərkib hissəsidir və aşağıdakı digər sənədlərlə birgə baxılır: Strateji İnkişaf Planı, Akademik siyasət, Keyfiyyətin daxili təminatı üçün standartlar.

1.3. Keyfiyyətin təmin olunması sahəsində siyasət və standartlar məntiqi və ardıcıl bir tsikldir. Bu tsikl daim təkmilləşir və BDU həyatının bütün sahələrində keyfiyyətin təmin olunması mədəniyyətinin inkişafını əhatə edir.

1.4. Keyfiyyətin təmin olunması sahəsində siyasət və standartlar elmi-tədqiqat, təlim və tədris arasındakı milli və Universitetdaxili əlaqələri əks etdirir.

1.5. Keyfiyyətin təmin olunması sahəsində siyasət və standartlar BDU-nun bütün struktur bölmələrinin iştirakı ilə həyata keçirilir.

1.6. Keyfiyyətin təmin olunması və artırılması üçün BDU rəhbərliyi, fakültələr, kafedralar, Keyfiyyətin təminatı və monitorinq şöbəsi və digər struktur bölmələrin rəhbərləri ümumi məsuliyyət daşıyır.

1.7. Keyfiyyətin təmin olunması sahəsində siyasət və standartlar ictimaiyyətə BDU-nun www.bsu.edu.az saytı ilə çatdırılır.

## 2. ƏSAS ANLAYIŞLAR

2.1. **Təhsilin keyfiyyəti** – təhsilalanların hazırlanması və təhsil fəaliyyətinin kompleks xarakteristikası olub dövlət təhsil standartlarına, peşə standartlarına və işəgötürənlərin tələblərinə, həmçinin təhsil proqramının planlaşdırılan məqsəd və nəticələrinə uyğunluğunu xarakterizə edir.

2.2. **Keyfiyyətin təmin olunması** zəruri şəraitin yaradılması və resursların ayrılmasını vasitəsi ilə müəyyən olunmuş məqsədlərə və tələb olunan keyfiyyət səviyyəsinə uyğunluğun təmin olunmasıdır.

2.3 **Keyfiyyətin daxili təmin olunması sistemi** təhsil proqramlarının keyfiyyətinin daim artırılması və fasiləsiz təkmilləşdirməsi mədəniyyətinin inkişaf etdirilməsi məqsədilə təşkilati struktur, sənədlər, göstəricilər, proses və resursların məcmusudur.

2.4. **Keyfiyyət mədəniyyəti** – BDU-da keyfiyyətin təmin olunması sahəsində siyasət və standartlara uyğun olaraq qəbul olunmuş əsas prinsipləri ehtiva edir və aşağıdakıları nəzərdə tutur:

- əməkdaşların hər birində təhsilin keyfiyyətinə vahid yanaşmanın formalaşdırılması;
- əməkdaşların yüksək keyfiyyətə nail olma yollarını müəyyən etməsi və başa düşməsi;
- əməkdaşların keyfiyyətin idarə edilməsi mümkünlüyünü və onun mexanizmini müəyyən etmək yollarını dərk etməsi.

2.5. **Steykholder (“stakeholder”)** – Universitetin fəaliyyətinin nəticələrinə maraqlı olan şəxs və ya insanlar qrupudur. Daxili steykholderə təhsil proqramının bütün səviyyələri üzrə təhsilalanlar, professor-müəllim heyəti və əməkdaşlar aiddir. Xarici steykholderlərə isə məzunlar, işəgötürənlər, qanunverici və icraedici orqanlar, tərəfdaşlar aiddir.

## 3. KEYFİYYƏTİN TƏMİN OLUNMASI SAHƏSİNDƏ BDU-NUN SİYASƏTİ, MİSSİYASI VƏ ŞÜARI

3.1. BDU təhsilə insanın, cəmiyyətin və dövlətin maraqları çərçivəsində şəxsiyyətin hərtərəfli inkişafı üçün ölkənin elmi, təhsil, yaradıcılıq və digər müəssisələri ilə qarşılıqlı əlaqədə Universitet tərəfindən həyata keçirilən vahid proses kimi baxır, təhsildə yüksək keyfiyyətin təmin olunmasını əsas vəzifələrindən biri hesab edir və keyfiyyət siyasətinin formalaşmasını idarəetmənin əsaslarından biri kimi nəzərdə tutur.

3.2. Keyfiyyətin təmin olunması sahəsində BDU-nun missiyası elm, təhsil və istehsalat proseslərinin vəhdətini təşkil etməklə, beynəlxalq tələblərə cavab verən ixtisaslı kadrların hazırlanmasıdır. Missiyanın əsasında rəqabətqabiliyyətli, maraqlı tərəflərin (steykholderlərin) tələblərinə cavab verən, innovativ texnologiyaları mənimsəmiş, müasir cəmiyyətin sosial-iqtisadi problemlərini elmi əsaslarla effektiv həll etməyi bacaran mütəxəssislərin hazırlanması durur.

3.3. Keyfiyyətin təmin olunması sahəsində BDU-nun şüarı: Keyfiyyətli təhsil və innovativ elm – firavan həyat və işıqlı sabaha aparan yoldur!

## 4. KEYFİYYƏTİN TƏMİN OLUNMASI PRİNSİPLƏRİ

4.1. BDU-da keyfiyyətin təmin olunması aşağıdakı əsas prinsiplərə əsaslanır:

- qanunvericiliyin və Avropa ali təhsil məkanında keyfiyyətin təmin olunması üzrə standart və təlimatların tələblərinə uyğun gəlməsi;
- keyfiyyətin təmin olunması siyasətinin icra olunması və siyasətin təkmilləşdirilməsinin rəhbərlik tərəfindən dəstəklənməsi;
- steykholderlərin tələblərinin və gözləntilərinin nəzərə alınması, onların təhsilin keyfiyyətinin təmin olunması və yüksəldilməsi fəaliyyətinə aktiv cəlb olunması;
- təhsilalanlara münasibətdə ədalətlilik və bərabər imkanların yaradılması;
- keyfiyyət və standartlara əsaslanan məsuliyyətin müəyyən edilməsi;
- qərarların məlumat və hesabatların hərtərəfli təhlili əsasında qəbul edilməsi;
- keyfiyyətin daxili təmin olunması və keyfiyyət mədəniyyətinin inkişaf etdirilməsi sistemlərinin təkmilləşdirilməsi üçün müvafiq şəraitin yaradılması;
- müstəqil xarici və daxili nəzarətin tətbiq edilməsi;
- maraqlı tərəflərə informasiyanın çatdırılması və şəffaflıq üçün şəraitin yaradılması.

4.2. Keyfiyyətin təmin olunması və inkişaf etdirilməsi BDU-da mövcud olan bütün təhsil proqramlarına tətbiq edilir.

4.3. BDU rəhbərliyi struktur bölmələrini və kafedraları material, avadanlıq, tədris- metodiki və elmi ədəbiyyatla təmin edir, təhsil proqramlarının maddi-texniki bazasını təkmilləşdirir, akademik heyətin fəaliyyətini stimullaşdırır və onların peşəkarlıq səviyyəsinin yüksəldilməsinə şərait yaradır.

4.4. İnstitusional və proqram akkreditasiyası, profilaktik nəzarət çərçivəsində Universitetin fəaliyyətinin və təhsil proqramlarının daxili özünüqiymətləndirilməsi aparılır. Elmi Şurada prorektorların, fakültə dekanlarının və digər struktur bölmə rəhbərlərinin hesabatları dinlənilir, xarici nəzarətin nəticələri, təhsilalanların aralıq və yekun attestasiyalarının nəticələri müzakirə olunur. Təhsilalanlar, məzunlar və işəgötürənlərlə anket sorğusu aparılır.

## 5. KEYFİYYƏTİN TƏMİN OLUNMASI SAHƏSİNDƏ SİYASƏTİN MƏQSƏDİ

BDU-da keyfiyyətin təmin olunması sahəsində siyasətin məqsədi aşağıdakılardır:

5.1. Təhsildə keyfiyyətin daxili təmin olunması sahəsində siyasətin ümumi strukturunu müəyyən etmək;

5.2. İnnovasiyalara əsaslanan təhsil və elm mühiti yaratmaq;

5.3. Əmək bazarının tələblərinə cavab verən, ixtisas üzrə dərin bilik, bacarıq, səriştələrə və erudisiyaya, geniş dünyagörüşə və mənəvi məsuliyyətə malik, qeyri-standart tapşırıqları həll etməyi bacaran kadr hazırlamaq;

5.4. Təhsil xidmətləri bazarında BDU-nun yüksək rəqabətqabiliyyətliliyini təmin etmək;

5.5. Bütün ixtisaslar üzrə təhsilin müasir sistemini formalaşdırmaq;

5.6. Elmi-tədqiqat işlərinin keyfiyyətini yüksəltmək və bu sahədə beynəlxalq əməkdaşlığı genişləndirmək;

5.7. Kadrların ixtisasartırma və təkmilləşdirilməsi işini təşkil etmək;

5.8. Təhsil sənədlərinin tanınmasını və kredit mobilliyini təmin etmək.

## 6. KEYFİYYƏTİN TƏMİN OLUNMASI SAHƏSİNDƏ MƏQSƏDLƏRƏ NAİL OLUNMASI ÜÇÜN GÖRÜLƏCƏK İŞLƏR

Keyfiyyətin təmin olunması sahəsində məqsədlərə nail olunması üçün həlli vacib olan məsələlər aşağıdakılardır:

6.1. Keyfiyyətli müəllim seçilməsi mexanizminin təkmilləşdirilməsi, məhsuldar və yaradıcı iş üçün şəraitin yaradılması, şəxsi məsuliyyət sisteminin yaradılması və həyata keçirilməsi, hər bir işçinin əməyinin qiymətləndirilməsi və stimullaşdırılması yolu ilə Universitetin professor-müəllim heyətinin və tədris köməkçi heyətin peşə hazırlıqları səviyyəsinin artırılması və peşə bacarıqlarının inkişaf etdirilməsi;

6.2. Əlavə resursların cəlb edilməsi, Universitetin əməkdaşlarının və tələbələrin praktik vərdişlərinin və ixtisaslarının artırılması, yüksək ixtisaslı kadr hazırlanması və təhsil prosesi üçün dolğun bazanın təmin edilməsi məqsədi ilə Universitetin elmi-tədqiqat və innovasiya fəaliyyətinin həcminin artırılması və sferasının genişləndirilməsi;

6.3. Təhsilalanlar və müəllimlərin mobilliyinin artırılması, təhsil, elm və yüksək texnologiyalar sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi;

6.4. Təhsil prosesinin və elmi-tədqiqat fəaliyyətinin inteqrasiyası, bütün təhsil dövrü müddətində tələbələrin tədqiqat işlərinin aparılmasına cəlb edilməsi siyasətinin fasiləsiz olaraq həyata keçirilməsi;

6.5. Səlahiyyət və məsuliyyətin bölüşdürülməsi, hesabatlılığın təmin olunması, keyfiyyətin yüksəldilməsi üçün effektiv tədbirlərin görülməsi, təhsil prosesinin keyfiyyətinin monitorinqinin müntəzəm olaraq həyata keçirilməsi və müasir menecment metodları əsasında Universitetin idarəetmə sisteminin təkmilləşdirilməsi;

6.6. Əmək bazarının tələlərinə uyğun olaraq yeni ixtisas və ixtisaslaşmaların açılması, təhsilin məzmununun keyfiyyətinin fasiləsiz yüksəldilməsi;

6.7. Çoxpilləli və fasiləsiz təhsil sisteminin inkişaf etdirilməsi;

6.8. Yeni təhsil standartlarına keyfiyyətli keçidin təmin edilməsi, onların əsasında yeni təhsil plan və proqramlarının, tədris-metodiki işlərin hazırlanması, ixtisaslı mütəxəssislərin hazırlanması üçün kompetensiyalı (səriştəli) yanaşmanın tətbiq edilməsinin effektiv mexanizminin işlənilib hazırlanması;

6.9. Təhsilalanlarda müstəqil fəaliyyətin inkişaf etdirilməsi və yüksək mədəniyyətli, sosial

fəal şəxsiyyətin formalaşdırılması;

6.10. Keyfiyyət meyarlarını nəzərə almaqla təhsil prosesinin təşkili və təkmilləşdirilməsi;

6.11. Təhsil sahəsində normativ qaydalara əsaslanan sənədlərin işlənilib hazırlanması və təkmilləşdirilməsi;

6.12. Tədris metodiki və maddi-texniki təminatın təkmilləşdirilməsi, müasir təhsil, o cümlədən məsafədən təhsil texnologiyalarının tətbiqi, təhsil prosesinə işəgötürənlərin aktiv cəlb olunması, təhsil proqramlarının hazırlanmasında işəgötürənlərin tələblərinin nəzərə alınması, Universitetdə təhsilin keyfiyyətinin xarici qiymətləndirilməsinə maraqlı tərəflərin cəlb edilməsi;

6.13. Universitet əməkdaşlarının və təhsilalanların sosial müdafiəsinin, təhsil prosesinin maliyyə və maddi təchizatının təmin edilməsi sisteminin təkmilləşdirilməsi;

6.14. Açıq təhsil məkanına daxil olmaq üçün Universitetin informasiya və kommunikasiya təminatının inkişaf etdirilməsi;

6.15. Digər ali təhsil müəssisələri ilə əməkdaşlığı genişləndirməklə Azərbaycan Respublikasında yüksək keyfiyyətli ali təhsil sisteminin yaradılmasına təşviq edilməsi;

6.16. Universitetdə qarşılıqlı hörmət və etimad mühitinin formalaşdırılması, Universitet dəyərləri sistemi kimi korporativ mədəniyyətin qorunub saxlanılması və inkişaf etdirilməsi, təhsildə keyfiyyətin təmin edilməsi üçün tələbə özünüidarəetmə orqanlarının rolunun yüksəldilməsi, sosial layihələrin və mədəni-kütləvi tədbirlərin imkanlarından tədris prosesində effektiv istifadə edilməsi;

6.17. Keyfiyyətli tədris prosesini təmin etmək məqsədilə Universitetdə keyfiyyətin təmin olunması sahəsindəki idarəçilik sisteminin işlənilib hazırlanması, tətbiq edilməsi və inkişaf etdirilməsi.

## 7. YEKUN MÜDDƏALAR

7.1. Keyfiyyətin təmin olunması sahəsində siyasət və standartlar müvafiq qaydada təsdiqlənir;

7.2. Təhsil proqramlarının keyfiyyətinin təmin olunmasının sisteminin təşkil edilməsində, keyfiyyətin təmin olunması sahəsində siyasətin və standartların formalaşdırılmasında və həyata keçirilməsində rəhbərlik, professor-müəllim heyəti və təhsilalanlar iştirak edir;

7.3. Mərkəzlərin, fakültələrin, kafedraların və digər struktur bölmələrin keyfiyyətin təmin olunması siyasətinin və standartlarının həyata keçirilməsində iştirak edir;

7.4. Keyfiyyətin təmin olunması siyasətinin həyata keçirilməsində təhsil və elmi-tədqiqatın qarşılıqlı əlaqəsinin təmin olunur;

7.5. Keyfiyyətin təmin olunması siyasətinin həyata keçirilərkən akademik dürüstlüyə dəstək verilir.

7.6. Köçürmə hallarına qarşı mübarizə məqsədi ilə “Antiplagiat” proqramından istifadə edilir.

7.7. Təbliğat-təşviqat materiallarında düzgünlük və obyektivlik gözlənilir.

7.8. Antikorrupsiya tədbirləri, müəllimlər və təhsilalanlar üçün Universitet və fakültə rəhbərliyi ilə əlaqənin mövcud olması, müəllimlərin, əməkdaşların, təhsilalanların sorğularına çevik reaksiya verilməsinə şərait yaradır.

7.9. Keyfiyyətinin təmin olunması siyasətinə ətraf mühitin və şəraitin dəyişməsi (əmək bazarı, tərəfdaşlar və s.) ilə yenidən baxılır.

7.10. Keyfiyyətin təmin olunması siyasətinin həyata keçirilməsi sahəsində görülən işlər barədə maraqlı tərəflər müntəzəm olaraq məlumatlandırılır.

**ƏLAVƏ**

## KEYFİYYƏTİN DAXİLİ TƏMİNATI ÜÇÜN STANDARTLAR

### 1. Tələbəmərkəzli təhsil, tədris və müvəffəqiyyətin qiymətləndirilməsi

Təhsil proqramlarının həyata keçirilməsi zamanı ilk növbədə təhsilalanların maraqları nəzərə alınır. Tədris prosesini birgə aparmaq üçün Universitet təhsilalanların aktiv iştirakını stimullaşdırır. Təhsilin nəticələrinin qiymətləndirilməsi tələbəmərkəzli təhsil yanaşmasını əks etdirir. Universitet tələbələrə və onların tələblərinə hörmət və diqqətlə yanaşmaqla, onlara çevik təhsil trayektoriyası təqdim edir. Lazımi biliklərin və kompetensiyaların sərbəst əldə edilməsi üçün müxtəlif pedaqoji metod və təhsil formalarından istifadə edərək təhsilalanların aktivliyini təmin edir, bununla da biliyin müəllim tərəfindən hazır şəkildə ötürülməsi praktikasından imtina edir. Təhsil formasını və pedaqoji metodları müntəzəm olaraq qiymətləndirmək və təkmilləşdirməklə təhsilalan-müəllim münasibətlərində qarşılıqlı hörmət və əməkdaşlığa nail olur.

1.1. Universitet təhsilalanların müstəqilliyini inkişaf etdirmək üçün aşağıdakı şərait və imkanları yaradır:

- təhsilin məqsədi və gözlənilən nəticələrinin təhsilalanlar üçün anlaşılan şəkildə tərtib olunması;
- təhsilin aktiv metodlarının tətbiq edilməsi;
- şəxsiyyətyönümlü yanaşmanın inkişaf etdirilməsi;
- fərdi təhsil trayektoriyalarının formalaşdırılması;
- təhsil proqramlarının işlənilib hazırlanmasına təhsilalanların cəlb olunması;
- təhsilalanların sərbəst işlərinin rolunun gücləndirilməsi;
- təhsildə tədqiqat yanaşmasının tətbiqi;
- tələbə özünüidarəçiliyi rolunun gücləndirilməsi;
- təhsil almaq üçün əlverişli şəraitin yaradılması.

1.2. Fərdi təhsil trayektoriyasını seçmək üçün Universitet təhsilalanlara şərait yaradır:

- təhsil dilinin, təhsil formasının, seçmə fənlərin və müəllimlərin seçilməsi;
- fərdi tədris planının tərtib edilməsi;
- fənnin təkrar öyrənilməsi və ya əlavə fənn öyrənmək imkanı;

1.3. Təhsilalanlar fənlərin tədrisi məqsədi ilə qeydiyyatdan keçir və fərdi tədris planını tyutorların (akademik məsləhətçilərin) köməyi ilə tərtib edirlər.

1.4. Təhsil fənlərinə qeydiyyat akademik təqvim əsasında həyata keçirilir.

1.5. Təhsil trayektoriyasını sərbəst təyin etmək üçün Universitet təhsilalanlara lazım olan bütün məlumatları təqdim edir: ali təhsilin uyğun təhsil səviyyəsinin dövlət standartını, təhsil proqramlarının nümunəvi tədris planlarını, seçmə fənlər kataloqunu, fənn və müəllim seçmə qaydalarını.

1.6. Təhsilalanların sərbəst işlərdə rollarının gücləndirilməsi və stimullaşdırılması aşağıdakılarla təmin edilir:

- sərbəst işlərə ayrılan saatların miqdarının optimallaşdırılması;
- biliklərin əldə edilməsinin müasir metodlarına istiqamətlənmə;
- təhsilalanların yaradıcı fəaliyyətdə iştirakı üçün şəraitin yaradılması;
- biliyə nəzarət edilməsi üçün həvəsləndirici faktorlardan istifadə edilməsi;

- təhsilalanların təhsil müvəffəqiyyətləri və yaradıcılıq fəaliyyətlərinə görə mükafatlandırılması;
- auditoriyada və auditoriyadankənar yerinə yetirilən tapşırıqların fərdiləşdirilməsi, onların daim yenilənməsi, görülən işlərin nəşr olunması, qiymətləndirmə meyarları və təhsilalanların sərbəst işlərinin yerinə yetirilməsi qrafikinin mövcudluğu.

1.7. Müəllim və təhsilalanların qarşılıqlı etimadı müəllim və tələbələr üçün etik və davranış qaydaları ilə tənzimlənir.

1.8. Təhsilalanların biliklərinin qiymətləndirilməsi mövcud qaydalara uyğun olaraq həyata keçirilir.

## 2. Təhsilalanların qəbulu, təhsil almaları, attestasiyası və təhsil sənədlərinin qarşılıqlı tanınması

Dövlət İmtahan Mərkəzi (DİM) Universitetin qəbul üzrə təqdim etdiyi plan yerlərinə tələbələrin qəbulunu həyata keçirir. BDU qəbul nəticələrini, ali təhsilin ixtisas kvalifikasiyalarını və əvvəlki təhsili müvafiq qaydalara uyğun olaraq müvafiq qaydada tanınmasını həyata keçirir. BDU təhsilin bütün səviyyələri və formaları üzrə təhsil xidmətləri göstərir və təhsilalanların attestasiyasını mövcud qaydalar əsasında həyata keçirir. Təhsillərini başa vuran təhsilalanlara müvafiq qaydalara uyğun olaraq diplom və diploma əlavənin verilməsini təmin edir.

2.1. Azərbaycan Respublikasında bakalavriat və magistratura səviyyələrində qəbulu DİM həyata keçirir. Doktoranturaya (dissertanturaya) qəbul üçün xarici dil üzrə imtahanlar DİM, fəlsəfə üzrə imtahanlar AR Elm və Təhsil Nazirliyi tərəfindən mərkəzləşdirilmiş qaydada həyata keçirilir. İxtisas fənni üzrə imtahanı BDU müvafiq qaydalara uyğun olaraq təşkil edir. Qəbul qaydaları və meyarları BDU-nun saytında yerləşdirilir.

2.2. Bakalavriat təhsil proqramına tam orta, orta ixtisas və ya ali təhsili başa vurmaq haqqında müvafiq dövlət nümunəli sənəd almış şəxslər qəbul olmaq hüququna malikdirlər.

2.3. Universitetin magistratura təhsil proqramına qəbul olmaq hüququna bakalavrlar və digər ali təhsilli şəxslər malikdirlər.

2.4. Universitet təhsilalanları təhsil proqramı, təhsil şərtləri və mövcud olan akademik imkanlarla tanış edir.

2.5. Məsafədən təhsil texnologiyaları ilə tədris prosesinin təşkili, akademik mobillik, tələbələrin elmi-tədqiqat işlərinin təşkili və fənlərin yenidən işlənilməsi daxili normativ sənədlərlə tənzimlənir.

2.6. Təhsilalanların akademik nailiyyətləri haqqında məlumatlar:

- cari yoxlamanın nəticələrinin toplanması və monitorinqi;
- aralıq və yekun attestasiyaların nəticələrinin toplanması və monitorinqi;
- məzunların məşğulluğu və vəzifələrində inkişaf etmələri haqqında məlumatların toplanması və monitorinqi;
- məzunların və işəgötürənlərin təhsilin keyfiyyətindən məmnunluqlarının monitorinqi vasitəsilə toplanılır.

2.7. Qazanılmış kreditlərin tanınması müvafiq qaydalara uyğun olaraq həyata keçirilir.

2.8. Respublikanın digər ali təhsil müəssisələrində və xarici universitetlərdə əldə edilmiş kvalifikasiyaların tanınması təsdiq olunmuş təhsil kreditlərinin transferi qaydalarına uyğun olaraq həyata keçirilir.

3.10. Təhsil proqramı ilə təhsillərini başa vurmuş təhsilalanlara uyğun dərəcə və dövlət nümunəli diplom və diploma əlavə verilir.

3.11. Qəbul, qiymətləndirmə, tanınma və məzun olmaq qaydaları təhsilalanlar üçün əlçatandır.

## 3. Professor-müəllim heyəti

Təhsilalanların keyfiyyətli təhsil alması, bilik, bacarıq, vərdiş və səriştələrə yiyələnmələrində professor-müəllim heyəti əhəmiyyətli rol oynayır. Universitet işə götürmək, bütün işçilərin vəzifədə yüksəlməsi və inkişaf etmələri üçün şəffaf qaydalar müəyyən edir, bu qaydaları nəşr və tətbiq edir.

3.1. Universitet öz əməkdaşları üçün effektiv şərait yaradır, onları keyfiyyətin təmin olunması sahəsində idarəetməyə cəlb edir.

3.2. Professor-müəllim heyəti və əməkdaşların inkişaf etmələri üçün BDU kadr siyasətini işləyib hazırlayır. Bu sənəddə kadrların idarə edilməsinə yanaşmalar, metodlar, alətlər əks olunur. BDU müəllimlərin inkişaf etdirilməsi sahəsindəki fəaliyyətini tələbəyönlü tədrisin təşkili istiqamətində qurur.

3.3. Universitet kadr siyasətinin aşağıdakı əsas prinsiplərini müəyyən edir:

- hərtərəfli – əməkdaşların idarə edilməsinin bütün sahələrinin əhatə olunması;
- sistemli – kadr siyasətini əhatə edən bütün elementlərə qarşılıqlı əlaqədə baxılması;
- əsaslandırılmış – maksimum iqtisadi və sosial effekt əldə etmək üçün heyətin idarə edilməsi sahəsində müasir elmi yanaşmalardan istifadə edilməsi;
- aşkarlıq – idarəetmə prosesinin bütün mərhələlərində şəffaflıq;
- layiqlilik – sosial mənsubiyyətindən asılı olmayaraq ən bacarıqlı şəxslərin lider mövqelərini tutması üçün lazım olan idarəetməyə cəlb edilməsi.

3.4. Akademik kadrların sayı və keyfiyyəti, təhsil fəaliyyətinə dövlət tərəfindən qoyulmuş tələblər nəzərə alınmaqla müəyyən olunur.

3.5. Professor-müəllim heyətinin işə qəbulu müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqə haqqında elan dövri mətbuatda və BDU-nun rəsmi saytında yerləşdirilir.

3.6. Universitet professor-müəllim heyətinə vəzifədə yüksəlmə və ixtisas sahəsində inkişaf imkanları verir, hər il üçün ixtisasartırma məqsədilə plan hazırlayır və həyata keçirir.

3.7. İstedadlı məzunların BDU-da işlə təmin olunması, işçilərin karyera yüksəlişi məqsədilə kadr ehtiyatı sistemi yaradır.

3.8. Fərdi əmək mübahisələrinə baxmaq üçün Universitetdə Apellyasiya komissiyası fəaliyyət göstərir.

3.9. BDU-da təhsil və elmi-tədqiqat işləri arasında əlaqələri möhkəmləndirmək məqsədi ilə aşağıdakılar nəzərdə tutulur:

- elmi fəaliyyətin motivasiyası sisteminin tətbiq edilməsi;
- əldə edilən elmi yeniliklər haqqında məlumatların verilməsi;

- elmi-tədqiqat nəticələrinin kommersiyalaşdırılmasına səy göstərilməsi;
- beynəlxalq elmi bazalardan və elektron informasiya resurslarından istifadəyə imkan yaradılması;
- elmi konfrans və müsabiqələrdə iştiraka, elmi əsərlərin nəşr edilməsinə köməklik göstərilməsi;
- elmi-tədqiqat fəaliyyətinin nəticəliliyinin planlaşdırılması və monitorinqi.

3.10. Universitet tədrisin innovativ metodlarının tətbiq edilməsi və qabaqcıl təlim texnologiyalarından istifadə üçün şərait yaradır:

- innovativ metod və texnologiyalar sahəsində akademik mobilliyin təmin edilməsi;
- yeni metod və texnologiyaların tətbiq edilməsi təcrübəsinin genişləndirilməsi;
- təlim-tədris prosesinin müasir avadanlıq və proqramlarla təchiz edilməsi;
- innovasiyaların tətbiqi və təlimin müasir metodlarından istifadə üzrə səmərəliliyinin və nəticəliliyinin monitorinqi.

## 4. Təhsil resursları və təhsilalanlara dəstək sistemi

Universitet təhsilin məqsədlərinə uyğun resursların və təhsilalanlara dəstək xidmətinin yetərliliyini və əlçatanlığını təmin edir. Təhsil resurslarının planlaşdırılması və təminatında Universitet təhsilalanların müxtəlif qruplarının tələbatlarını nəzərə alır.

4.1. Universitetin infrastrukturu vahid kompleks təşkil edir: Tədris korpusları, multimediya vasitələri ilə təmin olunmuş auditoriyalar, kompüter sinifləri, tədris və elmi-tədqiqat mərkəz və laboratoriyaları, idman zalları, tələbə evləri, tədris-təcrübə bazaları və s.

4.2. Təhsilalanlara müvafiq dəstəyi aşağıdakı strukturlar təmin edir:

- Keyfiyyət təminatı Mərkəzi
- Tədrisin təşkili və idarə olunması Mərkəzi;
- Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzi;
- İnformasiya Texnologiyaları Mərkəzi;
- Mədəniyyət-yaradıcılıq Mərkəzi;
- İdman-sağlamlıq Mərkəzi;
- Beynəlxalq əlaqələr şöbəsi;
- Humanitar məsələlər və gənclər siyasəti şöbəsi;
- İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi;
- Sənədlər və müraciətlərlə iş şöbəsi;
- Psixoloji yardım sektoru;
- Karyera və məzunlarla iş Mərkəzi;
- BDU-nun tələbə şəhərciyi;
- Poliklinika və s.

4.3. Bütün təhsil dövründə hər bir təhsilalan aşağıdakı informasiya resursları ilə məhdudiyyətsiz təmin edilir:

- Universitetin rəsmi saytı və sosial media hesabları;
- “Bakı Universiteti” qəzeti;

- BDU TV;
- Elmi Kitabxana;
- elektron kitabxana.

4.4. Kitabxananın kitab fondundan, o cümlədən tədris, metodiki və elmi ədəbiyyatdan Azərbaycan, rus və ingilis dillərində, həmçinin xarici və respublika dövri mətbuatından istifadə təmin edilir.

4.5. Kitabxananın informasiya dəstəyi BDU-nun rəsmi saytının "Elmi Kitabxana" bölməsi vasitəsi ilə həyata keçirilir.

4.6. BDU təhsilalanların sərbəst işlərinin təşkili üçün tədris-metodiki (video, elektron dərsliklər, elektron nəşrlər) və elmi-pedaqoji ədəbiyyata malik elektron kitabxananı formalaşdırır və inkişaf etdirir. Elektron kitabxananın resurslarına giriş məhdudiyyətsiz həyata keçirilir.

4.7. Təhsilalanların ictimai fəaliyyətinin təşkili, tələbə özünüidarəçiliyinə və yaradıcı fəaliyyətə cəlb edilməsi tyutorlar tərəfindən həyata keçirilir.

4.8. Universitet, tələbə özünüidarəçiliyinə dəstək verir və onun inkişafına şərait yaradır, əsas məqsədlərini müəyyən edir:

- təsilalanların aktual təhsil problemlərinin həll edilməsi istiqamətində işlərin aparılması;
- Universitetin nüfuzunun artırılması;
- təhsilalanlar mühitində sağlam həyat tərzinin təbliğ olunması, təhsilalanların asudə vaxtlarının səmərəli təşkili;
- təhsilalanların yaradıcılıq potensialının inkişaf etdirilməsi;
- Universitet həyatında təhsilalanların aktiv iştirakının təmin edilməsi.

4.9. Tələbə özünüidarəçilik sistemi Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Elmi Cəmiyyəti, Gənc Alimlər Şurası və Tələbə Gənclər Təşkilatı formasında fəaliyyət göstərir.

4.10. Universitet əcnəbi təhsilalanlar üçün tələbə evlərində yaşamaq üçün müvafiq şərait yaradır.

4.11. Universitetin Tələbə evləri bütün lazımi infrastruktur ilə təchiz olunur. Təhsilalanların hərtərəfli inkişafı və yaradıcılıq təşəbbüslərinin həyata keçirilməsi üçün əlverişli şərait yaradılır. Təhsilalanların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək üçün Universitet müxtəlif klubların yaradılmasını təmin edir.

4.12. Universitetin prioritet istiqamətlərindən biri də sağlam həyat tərzi mədəniyyətinin formalaşdırılması və möhkəmləndirilməsidir. Universitet müəllimlər və təhsilalanların idmanla məşğul olmaları üçün müvafiq şərait yaradır, ödənişsiz əsaslarla idman-sağlamlıq bölmələri, idman zalları fəaliyyət göstərir. Təhsilalanların xaricdə və respublika idman yarışlarında iştiraklarına şərait yaradır.

4.13. Universitet təhsilalanları və əməkdaşları ərazisində fəaliyyət göstərən poliklinika tərəfindən tibbi xidmətlə təmin edir.

4.14. Universitet təhsilalanların tələbatlarını nəzərə alır:

- təhsilalanlar üçün informasiya resursları və elektron kitabxananın məhdudiyyətsiz əlçatanlığı təmin edilir;
- Universitet infrastrukturunda məhdud imkanlı təhsilalanların tələbatları nəzərə alınır;
- əcnəbi tələbələrin adaptasiyası üçün, sosial-psixoloji və akademik dəstək məqsədi ilə kompleks tədbirlər həyata keçirilir.

## 5. İdarəetmədə informasiyalardan istifadə

Universitet informasiyanın toplanması, təhlili və istifadəsi qaydalarını müəyyən edir, öz proqramlarının idarə edilməsində, fəaliyyətinin müəyyənləşdirilməsində bu informasiyalara istinad edir. Universitet informasiyanın əhəmiyyətlilik dərəcəsinin ölçülməsini, etibarlılığını, düzgünlüyünü və bütövlüyünü təmin edir.

5.1. Keyfiyyətin təmin olunması sistemini qiymətləndirmək məqsədi ilə Universitet informasiyanın toplanması və təhlili üçün aşağıdakı metodlardan istifadə edir:

- informasiyanın toplanılması və tətbiqi;
- fəaliyyətin nəticələrinə maraqlı olan tərəflərin tələblərinin müəyyən edilməsi;
- maraqlı tərəflərin məmnunluq dərəcəsinin qiymətləndirilməsi;
- proseslərin daxili auditi.

5.2. Universitet idarəetmədə aşağıdakı mənbələrdən istifadə edir:

- Universitetin rəsmi saytı və sosial media hesabları;
- elektron sənəd dövriyyəsi;
- elektron təhsil idarəetmə sistemi;
- insan resurslarını vahid idarəetmə sistemi;
- “Bakı Universiteti” qəzeti;
- elektron kitabxana;
- elektron mühasibatlıq sistemi.

5.3. Universitetin Strateji İnkişaf Planının hazırlanması və yenilənməsi çərçivəsində xarici və daxili mühitin ətraflı təhlili aparılır:

- təhsilin inkişafına beynəlxalq tendensiyaların və xarici amillərin təsirinin təhlili;
- əmək bazarının və təhsil xidmətlərinin xüsusiyyətlərinin müəyyənləşdirilməsi;
- mövcud vəziyyətin, güclü və zəif tərəflərin, daxili və xarici risklərin təhlili.

5.4. Tələbə kontingenti ilə bağlı statistik və arayış hesabatlarının və tələbə kontingentinin hərəkəti üzrə əmrlərin formalaşdırılması Tədrisin təşkili və idarə olunması Mərkəzi tərəfindən həyata keçirilir.

5.5. Məşğulluq prosesinin təhlili və monitorinqi Karyera və məzunlarla iş Mərkəzi tərəfindən həyata keçirilir. Məzunların məşğulluğu və karyera yüksəlişi barədə məlumat bazasının formalaşdırılması müvafiq fakültə tərəfindən həyata keçirilir. Universitet işəgötürənlərin iştirakı ilə mütəmadi olaraq əmək yarmarkaları təşkil edir.

5.6. Maraqlı tərəflərin ehtiyacları və gözləntiləri təhsil sahəsindəki xarici tənzimləyici sənədlərin təhlili, birgə tədbirlər (təcrübə, seminarlar, iclaslar, müştərək layihələr və s.), rəylər və sorğu nəticələrinin təhlili ilə müəyyən edilir.

5.7. Maraqlı tərəflərin məmnunluğu illik planlaşdırma və sosioloji tədqiqatların bir hissəsi kimi qiymətləndirilir:

- təhsil xidmətlərinin keyfiyyəti barədə məzunlar arasında sorğu;
- təlimin keyfiyyəti barədə işəgötürənlər arasında sorğu;
- fənlərin tədrisinin keyfiyyəti barədə təhsilalanlar arasında sorğu.

5.8. Monitorinq prosesində gözlənilən keyfiyyət və mövcud məmnunluğun etibarlı ölçülməsini təmin edən sosioloji metodlardan istifadə olunur: sənədlərin təhlili, müsahibələr, ekspert sorğuları, anket sorğuları və s. Sosioloji tədqiqatların nəticələri kafedraların, fakültələrin elmi şuralarının və BDU-nun Elmi Şurasının iclaslarında müzakirə olunur və müvafiq qərarlar qəbul edilir.

5.9. Universitet təhsilin keyfiyyətinin təmin olunması ilə əlaqədar idarəetmə sistemi, akademik heyət və tələbələr arasında müvafiq məlumat mübadiləsini təmin edir.

5.10. Toplanan məlumatların strukturu və həcmi, mənbələri, dövriliyi və cavabdeh şəxslər daxili qaydalarla müəyyən edilir.

5.11. Məlumatların saxlanılması və təhlükəsizliyi, istifadə olunan informasiya sistemlərindəki rol və funksiyaların paylanması, serverlərin sistem inzibatçılığı, serverlərdə ehtiyat sistemlərinin mövcudluğu təmin edilir.

## 6. İctimaiyyətin məlumatlandırılması

Universitet təhsil proqramlarının icrası da daxil olmaqla, öz fəaliyyəti haqqında ictimaiyyətə mütəmadi məlumat verir. İctimaiyyətə verilən məlumatlar aydın, dəqiq, əhatəli, düzgün və qərəzsiz olmalıdır.

6.1. Universitetin informasiya siyasəti aşağıdakılara yönəlmişdir:

- Universitetin rəsmi internet saytında, habelə mediada mühüm hadisələr və nailiyyətlər barədə xəbərlərin müntəzəm verilməsinin təmin edilməsi;
- maraqlı tərəflərin BDU alimlərinin tətbiqi xarakterli elmi nəticələri ilə tanışlığının təmin olunması;
- dövlət sosial-iqtisadi inkişaf konsepsiya və strategiyalarının fasiləsiz təhsil proqramları vasitəsilə dəstəklənməsi haqqında ictimaiyyətin məlumatlandırılması.

6.2. Universitetin informasiya siyasətinin icrası İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi tərəfindən təmin edilir. Şöbənin funksiyasına informasiya siyasətinin prioritet sahələrini müəyyənləşdirmək, mövcud bütün məlumat mənbələrindən istifadə edərək həyata keçirmək üçün planlar qurmaq, məlumatların tamlığını və faydalılığını təmin etmək, yeni informasiya kanallarının axtarılması, informasiya fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə kütləvi informasiya vasitələrinin monitorinqi və s. daxildir.

6.3. Universitet öz fəaliyyəti barədə ictimaiyyəti www.bsu.edu.az rəsmi saytı, kütləvi informasiya vasitələri, "Bakı Universiteti" qəzeti, sosial media hesabları vasitəsi ilə məlumatlandırır.

6.4. İmtahanlar və onların keçirilməsi haqqında məlumatlar Universitetin veb səhifəsində və fakültələrin veb səhifələrində yerləşdirilir. Məzunlarla bağlı müvafiq məlumat Universitetin veb səhifəsində yerləşdirilir.

6.5. Tədris prosesi, semestr və imtahan sessiyaları haqqında müvafiq məlumat və s. veb səhifələrində, həmçinin fakültələrin məlumat lövhələrində yerləşdirilir.

6.6. Veb səhifədəki məlumatlar mütəmadi olaraq yenilənir.

6.7. İnformasiyanın effektivliyi axtarış sistemləri üzrə göstəricilərin monitorinqi yolu ilə müəyyən edilir.

6.8. Universitet "BDU TV" studiyasına malikdir.

6.9. Elmi tədqiqatların nəticələri Universitetin elmi jurnallarında dərc olunur.

6.10. Universitetin sosial şəbəkələrdə rəsmi sosial media hesabları (facebook, twitter, instagram, youtube və telegram) mövcuddur.

## 7. Proqramların daimi monitorinqinin aparılması və vaxtaşırı yoxlanılması

Universitet təhsil proqramlarının monitorinqi, vaxtaşırı qiymətləndirilməsi və yenidən işlənməsi qaydalarını müəyyənləşdirir və ardıcıl tətbiq edir. Universitet tələbələrin, işəgötürənlərin və digər maraqlı tərəflərin proqramların qiymətləndirilməsində və yenidən işlənməsində iştirakını təmin edir. Universitet proqramların davamlı təkmilləşdirilməsi üçün bu proseslərin nəticələrindən istifadəni və bütün dəyişikliklərin dərc olunmasını təmin edir.

7.1. Universitetin təhsil proqramlarının daimi monitorinqi, dövri qiymətləndirilməsi və yenidən nəzərdən keçirilməsi onların səmərəli həyata keçirilməsini təmin etmək və tələbələr üçün əlverişli öyrənmə mühiti yaratmağı hədəfləyir.

7.2. Universitet təhsil proqramlarının monitorinqi, təhlili və yenidən baxılması zamanı aşağıdakıları nəzərə alır:

- yeni təhsil standartlarının tətbiqini;
- işəgötürənlərin sorğu anketinin və birgə tədbirlərin nəticələrinə əsasən formalaşdırılan təkliflərini;
- Yekun Dövlət Attestasiyası Komissiyasının tövsiyələrini;
- professor-müəllim heyətinin təhsil tədqiqatlarının nəticələrini;
- təhsil proqramlarının inkişafı üçün tənzimləyici tələblərdəki dəyişiklikləri.

7.3. Təhsil proqramlarının təkmilləşdirilməsi aşağıdakıları əhatə edir:

- kafedra iclaslarında, Elmi-Metodiki Şurada və Elmi Şurada metodiki təminatın ekspertizasının aparılması;
- işəgötürənlərin iştirakı ilə seçmə fənlər kataloqunun müntəzəm təhlili və yenilənməsi;
- təhsil proqramlarının təkmilləşdirilməsi üçün maraqlı tərəflərlə əks-əlaqənin yaradılması (dəyirmi masalar, sənaye təcrübələrinə dair yekun konfranslar, birgə elmi və metodiki seminarlar);
- təhsil proqramlarının icrasına nəzarət olunması.

7.4. Maraqlı tərəflərin təhsil proqramlarının keyfiyyətini qiymətləndirməsi:

- müvafiq tədris ili üzrə təhsil proqramının həyata keçirilməsində iştirak etmiş professor-müəllim heyətinin tədris fəaliyyətinin tələbələr tərəfindən qiymətləndirilməsi;
- təhsil proqramının keyfiyyəti, mənimsəmə dərəcəsi və aktuallığı barədə məzunların illik sorğusu;
- məzunların təlim keyfiyyəti barədə işəgötürənlər arasında sorğu;
- məşğulluq göstəricilərinin toplanılması və təhlili, məzunların karyera yüksəlişinin təhlili;
- professor-müəllim heyətinin açıq dərslərinin və dərslərin qarşılıqlı dinlənilməsinin təşkili.

7.5. Tələbələrin təhsil nəticələrinin qiymətləndirilməsi:

- aralıq və yekun qiymətləndirmənin nəticələrinin təhlili;
- kollegial orqanların iclaslarında akademik fəaliyyət nəticələrinin nəzərə alınması;
- Yekun Dövlət Attestasiyasının nəticələri əsasında məzunların təlim keyfiyyətlərinin təhlili.

Qiymətləndirmə meyarlarının gözlənilən təhsil nəticələrinə, qiymətləndirmənin fənnin məzmununa, məqsəd və vəzifələrinə uyğunluğu təlim nəticələrinin təhlili zamanı nəzərə alınır.

7.6. Təhsil proqramlarının keyfiyyətinin planlaşdırılması, təşkili, monitorinqi və inkişafının müəyyən edilmiş tələblərə uyğunluğunu müəyyənləşdirmək üçün illik daxili yoxlamalar keçirilir:

7.7. Təhsil proqramlarındakı dəyişikliklər aşağıdakı sənədlərdə öz əksini tapır:

- kollegial orqanların qərarlarında;
- tədbirlərin protokollarında;
- Elmi-Metodiki Şuranın təhsil proqramlarının monitorinqi və qiymətləndirilməsi üzrə qərarlarında.

7.8. Təhsil proqramlarının monitorinqi və qiymətləndirilməsinin nəticələrinə dair illik hesabatının əsas məqsədləri aşağıdakılardır:

- təhsil proqramının qiymətləndirilməsi və onun təkmilləşdirilməsinə dəstəyin göstərilməsi;
- təhsil proqramı üçün xarici tələblərdəki dəyişikliklər barədə məlumatlandırma;
- təhsil proqramını həyata keçirən digər universitet və təşkilatlarla müzakirələrin aparılması;
- ölkədaxili və xarici universitetlərin təhsil proqramlarının məzmunlarının uyğunlaşdırılması;
- təhsil proqramını həyata keçirən professor-müəllim heyətinin ixtisasartırmalarının istiqamətlərinin müəyyənləşdirilməsi;
- xarici yoxlamaların keyfiyyətin təmin olunması üzrə tövsiyələrinin nəzərə alınması;
- təhsil proqramının təkmilləşdirilməsi üçün maraqlı tərəflərlə əks əlaqənin forma və məzmununun müəyyənləşdirilməsi;
- təhsil proqramının təşviqi üçün qabaqcıl təcrübələrin müəyyən edilməsi.

## 8. Xarici keyfiyyət təminatının təmin olunması

Universitet müntəzəm olaraq müxtəlif formatlarda xarici keyfiyyət təminatı üzrə monitorinqlərdə iştirak edir. Universitet xarici qiymətləndirmənin nəticələri barədə ictimaiyyətə məlumat verilməsinə zəmanət verir və onların təhsil proqramlarını və bütün fəaliyyət növlərini təkmilləşdirmək üçün istifadəsini təmin edir.

8.1. Universitet davamlı olaraq müxtəlif formatlarda xarici keyfiyyət təminatı üzrə qiymətləndirmələrdə iştirak edir:

- təhsilin xarici qiymətləndirilməsi;
- institusional və proqram akkreditasiyası;
- universitetlərin institusional reytinqi və təhsil proqramlarının reytinqi.

Xarici keyfiyyət təminatı Universitetin daxili keyfiyyət təminatı proseslərinin effektivliyini qiymətləndirməyə imkan verir.

8.2. Xarici keyfiyyət təminatı aşağıdakı ardıcıllıqla həyata keçirilir:

- xarici qiymətləndirmənin təşkili barədə Universitet rəhbərliyi tərəfindən qərar qəbul edilməsi;
- özünüqiymətləndirmə və xarici qiymətləndirmənin təşkili üçün işçi qrupunun yaradılması;
- xarici qiymətləndirmənin tələblərinə uyğun olaraq özünütəhlil və özünüqiymətləndirmənin aparılması;
- özünüqiymətləndirmə nəticələrinə əsasən hesabatların hazırlanması;
- xarici qiymətləndirmə mərhələlərinin təşkili.

8.3. Keyfiyyət təminatının xarici qiymətləndirilməsi başa çatdıqdan sonra, Universitet keyfiyyət təminatı prosesini təkmilləşdirərək fəaliyyət planı hazırlayır və həyata keçirir. Universitet növbəti xarici qiymətləndirməyə hazırlaşarkən son xarici keyfiyyət təminatı qiymətləndirməsinin tövsiyə və iradlarını nəzərə alır.

8.4. Universitet təhsil proqramlarının akkreditasiyasını həm beynəlxalq, həm də yerli səviyyədə mütəmadi olaraq həyata keçirir.

8.5. Keyfiyyət təminatının xarici qiymətləndirilməsi üzrə nəticələr Universitetin rəsmi veb səhifəsində yerləşdirilir.